

# Güneydən səslər...

“Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## KAMİL QƏHRƏMANOĞLU



1974-cü ilin bahar çağında Güney Azərbaycanın Xiyav şəhərinin Əhmədabad kəndində dünyaya göz açıb. Kamil müəllim fars ədəbiyyatı üzrə elmlər doktorudur.

Kamil Qəhrəmanoğlu Azərbaycan türkcəsində şeirlər yazan şair kimi tanınıb. Şeirlərini postmodern üslubda yazır və dünyadilli bir şair hesab olunur. Çağdaş Azərbaycan ədəbiyyatına üstün postmodernizm motivlərini gətirir və çalışır ki, türkcə yaranan ədəbiyyata qol-qanad versin, bu ədəbiyyatı dünyadilli ədəbiyyatlar önündə zirvədə saxlasın. "Dumanlı saniyələr gəlin gedir" kitabı 2010-cu ilin qışında işıq üzü görüb. 2012-ci ildə Süreyya Kəhrizi "Baran" xanımın şeirlərini türkcəyə çevirib və "Sərhəddən çığırıram" adı ilə nəşr etdirib. "Ah sənin hökumət gözlərin" şeir toplusu 2019-cu ildə işıq üzü görüb.

Kamil Qəhrəmanoğlu bir neçə dəfə şeir festivallarında birinci yeri tutmuşdur. Şairin şeirləri Azərbaycandan əlavə, başqa ölkələrdə də yaxşı qarşılanır.

### Göylər dağımdı - Qarabağımdı

Göylər barmağımdan su içir artıq
göylər barmağımdı barmağım göylərdi
göylər dağımdı - Qarabağımdı
"Baltalıqdır Qarabağ göysü,
əsirlər bitirib Xocalı kimliyi sürgündə
Araz, yapraqla!.."
göylər barmağımın şəhadət sonrasıdı!
Of...
hanı düşüncə planlı leylası!
torağay haylası
bayquş qarğası!

## MUSTAFA ŞEYXPUR



Mustafa Şeyxpurun kimliyi öz dilindən: "1982-ci ildə Miyana şəhərində anadan oldum. Orta məktəbi Miyana şəhərində oxudum, sonra Təbriz Azad Universitetində elektrik-elektronik mühəndisliyi bölümünü bitirdim. İndi isə Tehranda yaşayıram və bir Almaniya şirkətində servis mühəndisi olaraq çalışıram.

Şeir yazmağa 13-14 yaşlarımdan başladım. Güney Azərbaycanda yaşayan və yazan hər bir kəs kimi ilk yazılarımı təhsil aldığım dildə, yəni fars dilində yazdım. Sonralar Azərbaycan poeziyası və ədəbiyyatı ilə tanış oldum. Ancaq bundan sonra öz ana dilimdə yazmağa başladım. Müxtəlif dərgilərdə şeirlərim yayınlandı. 2014-cü ildə "Dünya durduğum yerdə qurtarır" adlı birinci şeir kitabım Tehranda "Riva" yayın evi və "Yaşmaq" ədəbi qrupu tərəfindən çap olunub…"

### Ortadoğu

Sarmaşıq sarısı dolaşdılar yaşıllığımıza
Baxçamıza qorxu oturmasın diyə
Daha qızarmadı almalar
İlk ceyran vurulanda dağlarda
Doğulmadı bir daha göyərçin
Sərçələrsə unutdular uçuşu
Şəhərlərdə susdu sevgi
Pəncərələr açılacaqdı
Uşaqlar güləcəkdi...

Esmira Fuad